Carlsberg Group



# ƏTRAF MUHITIN QORUNMASI ÜZRƏ SİYASƏT

# GİRİŞ VƏ MƏQSƏD

Dünya üzrə pivə və içki şirkəti olaraq, ekoloji dayanıqlıq Carlsberg Qrupunun biznesi üçün son dərəcə vacibdir. Bizim xammal və tərkib maddələrinin böyük hissəsi birbaşa təbiətdən alınır, və biznesimizin davamlı uğuru birbaşa ətraf mühitin sağlamlığı ilə bağlıdır. Buna görə də biz daim fəaliyyət göstərdiyimiz ətraf mühitə və cəmiyyətə təsirimizi azaltmaq yollarını axtarırıq.

Carlsberg Qrupu, ekosistemlərin təqdim etdiyi xidmətlərin və onların əsasını təşkil edən biomüxtəlifliyin anlaşılması, qorunması və genişləndirilməsində oynadığımız mühüm rolu başa düşür. Buna görə də biz davamlı olaraq təbii resursların istifadəsini optimallaşdırmağa, məhsul və fəaliyyətimizi həyat dövrü baxımından nəzərdən keçirməyə, eləcə də ekoloji cəhətdən təmiz məhsullar, materiallar və texnologiyalardan uzunmüddətli davamlı inkişafa kömək edəcək şəkildə istifadə etməyə çalışırıq.

Bizim Birlikdə SIFIRA Doğru davamlı inkişaf proqramımız materialların seçilməsindən başlayaraq qablaşdırmaya, istehsal, distribusiya, satış və marketinq mərhələlərindən keçərək məhsulların istehlakına qədər dəyər zənciri boyu fəaliyyətimizin təsirlərinin qarşısını alan sahəmizə aid aparıcı hədəflər qoymaqla, davamlı inkişafa bağlılığımızı aydın şəkildə vurğulayır.

Ekoloji siyasətin məqsədi ətraf mühit üçün potensial risklərin qarşısını almaq və nəzarət etməkdir, və o, bizim Birlikdə SIFIRA Doğru proqramında göstərildiyi kimi 2022 və 2030-cu ilə doğru iddialı hədəflərimizlə dəstəklənir.

# ƏHATƏ DAİRƏSİ

Bu siyasət bütün Carlsberg Qrupu müəssisələrinin rəhbərliyinə, əməkdaşlarına və müqavilə işçilərinə qlobal miqyasda şamil olunur. Siyasət həmçinin ziyarətçilərə və Qrupun işçiləri və ya agentləri xarici məkanlarda işləyərkən tətbiq olunur.

# TƏLƏBLƏR

## 1. ÖHDƏLIKLƏR

1.1. Ətraf mühitin mühafizəsi üzrə standartlarımızı davamlı olaraq təkmilləşdirmək.

1.2. Strategiyamıza, hədəflərimizə və əlaqəli vəzifələrimizə uyğun olaraq ünsiyyət aparmaq və çatdırılmaları həyata keçirmək.

1.3. Sıfır ekoloji qəzalara nail olmaq üçün daim risklərin azaldılması üzərində işləmək.

1.4. Sertifikatlaşdırılmış ekoloji idarəetmə sistemimizin işini aparmaq.

## 2. ISO SERTIFIKATLAŞDIRMASI VƏ INTEQRASIYA OLUNMUŞ IDARƏETMƏ SISTEM (IMS)

2.1. Carlsberg Qrupunun Təchizat zəncirinin idarə edilməsi və istehsalı logistikanı ehtiva edən ISO 14001-ə uyğun olaraq sertifikatlaşdırılmalıdır.

2.2. Carlsberg Qrupunun Qərbi Avropada təchizat zənciri boyunca nəzarət payına malik olduğu şirkətlər üçün çoxyerli ISO 14001 sertifikatına malikdir.

## 3. ENERJI VƏ EMISSIYALAR

3.1. Carlsberg Qrupu bütün enerji mənbələrindən maksimum dərəcədə səmərəli istifadə etməyə və istixana qazlarının emissiyalarını və səs-küy/qoxu/narahatlıq ilə bağlı emissiyalarını azaltmağa çalışır.

3.2. Carlsberg Qrupu mütəmadi olaraq karbon qazı izinin azaldılması məqsədilə fəaliyyətində bərpa olunan enerji mənbələrinin tətbiqi imkanlarını qiymətləndirir.

## 4. SU VƏ ÇIRKAB SULAR

4.1. Carlsberg Qrupu çalışdığı cəmiyyətdə suyun səmərəli istifadəsinə nail olmaq üçün çalışır.

4.2. Carlsberg Qrupu müntəzəm olaraq su çatışmazlığının bütün formalarına məruz qalmağımızı qiymətləndirir və uzun müddətli su istifadəsini təmin etmək üçün müvafiq tədbirlər görür.

4.3. Su çatışmazlığı olan ərazilərdə, Carlsberg Qrupu, yerli icmalarla su anbarlarını idarə etməyə ən yaxşı şəkildə necə kömək edə biləcəyimizi başa düşmək üçün qarşılıqlı fəaliyyət göstərir.

4.4. Carlsberg Qrupu, fəaliyyətimizin nəticəsində çirkab sularının yerli qanunvericiliyin tələblərinə uyğun olaraq təmizlənməsini təmin edir. Bu, ya ərazidə olaan təmizləyici qurğular, yaxud ərazidən kənarda yerləşən bələdiyyə/sənaye təmizləyici qurğularında həyata keçirilir.

## 5. TULLANTILAR VƏ YAN MƏHSULLAR

5.1. Carlsberg Qrupu, resursların qorunması və torpaq, su və havanın çirklənməsinin qarşısını almaq üçün tullantıların meydana gəlməsini aradan qaldırmaq və ya azaltmaq/minimuma endirmək üçün çalışır.

5.2. Carlsberg Qrupu pivəbişirmənin yan məhsullarını yem materialı, bərpa olunan enerji və ya torpaq təkmilləşdiricisi kimi istifadə etməyə çalışır.

5.3. Torpaqların nəzarətsiz doldurulmasının və ya ərazidə/ərazidən kənarda tullantıların nəzarətsiz idarə edilməsinin hər hansı bir formasının qarşısı alınmalıdır.

## 6. QABLAŞDIRMA

6.1. Carlsberg Qrupu qablaşdırma materiallarının istehlakını azaltmaq və ətraf mühitə təsirini minimuma endirmək üçün təkrar istifadə və emalının təşviqi üçün daim tərəfdaşları ilə işləyir.

6.2. Yeni qablaşdırma növləri bazara təqdim edilməzdən əvvəl, onlar həyat dövrünün qiymətləndirilməsindən (LCA) və ya oxşar ekoloji qiymətləndirmədən keçməlidirlər.

6.3. Carlsberg Qrupu Ekoloji təmiz içki qablaşdırma sistemlərinin təkmilləşdirilməsi və yaradılmasında fəal rol oynamağa çalışır.

## 7. SƏRMAYƏLƏR VƏ SATINALMALAR

7.1. Carlsberg Qrupu, bu siyasətin əhatə etdiyi bütün sahələr daxil olmaqla, ətraf mühitə əhəmiyyətli təsir göstərən işlərin planlaşdırılması, hesablanması və həyata keçirilməsi zamanı sərmayələrin və satınalmaların ekoloji aspektlərinə prioritet diqqət yetirir.

7.2. Carlsberg Qrupu enerji səmərəli avadanlıqlarının alınmasına və enerji/ekoloji göstəricilər üçün təkmilləşdirilmiş dizayna üstünlük verir.

## 8. MARAQLI TƏRƏFLƏR

8.1. Carlsberg Qrupu ekoloji məsələlər üzrə maraqlı tərəflərimizlə açıq və qərəzsiz dialoq tərəfdarıdır və biz vaxtaşırı xarici və daxili maraqlı tərəflərlə yanaşmamızı əhəmiyyətliliyin qiymətləndirilməsi yolu ilə əlaqələndiririk.

# ROLLAR VƏ VƏZIFƏLƏR

| Orqan/funksiya/fərdlər | Rollar və vəzifələr |
|---|---|
| İcraiyyə Komitəsi | Siyasətin təsdiqinə görə məsuliyyət daşıyır. |
| Carlsberg Təchizat zəncirinin (CSC) icraçı vitse-prezidenti | Siyasətin sahibi, onu təsdiqləyir və həyata keçirilməsini təmin edir. |
| Qrupun Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik | Carlsberg Qrupunda ekoloji məsələlər üzrə İcraiyyə Komitəsi qarşısında və əhəmiyyətli ekoloji risklərin Qrupda düzgün uçotunun aparılması və müvafiq hallarda İcraiyyə Komitəsinin diqqətinə çatdırılmasına görə ümumi məsuliyyət daşıyan siyasət sahibi. Qrupun ƏMM proqramına və İdarəetmə Sisteminə, ƏMM-nin effektivliyi, kommunal xidmətlər proqramı, kommunal xidmətlərin səmərəliliyi, hədəflər, göstərişlər və istiqamətləndirməyə görə ümumi məsuliyyət. |
| Qrupun Davamlılığı | Siyasət sahiblərinə siyasətin məzmunu ilə bağlı məsləhətlər verir və xarici maraqlı tərəflərlə siyasətlə bağlı işlərin proqramının müvafiq və düzgün çatdırılmasını təmin edir. |
| Müvafiq Qrup VP-ləri/Ölkə Baş direktorlar/regional və yerli idarəetmə | Bu siyasətin və müvafiq standartların həyata keçirilməsinin və yerinə yetirilməsinin təmin edilməsinə, həmçinin siyasət və onun tələbləri barədə bütün müvafiq əməkdaşların məlumatlandırılmasına görə məsuliyyət daşıyır. Biznes üçün müvafiq risk qiymətləndirmələrini həyata keçirməyə görə məsuliyyət daşıyır. |
| İstehsalat Direktorları/Sifarişçi Təchizat Zənciri Direktorları | Öz müvafiq sahələrində təchizat zənciri çərçivəsində bütün fəaliyyətlərdə siyasətin həyata keçirilməsinə görə tam məsuliyyət daşıyırlar və hesabat verirlər. |
| Menecerlər/Direktorlar | Nümunə göstərməyə və öz müvafiq qrupları daxilində siyasətin adekvat başa düşülməsini təmin etməyə görə məsuliyyət daşıyırlar. |
| Ziyarətçilər də daxil olmaqla, Carlsberg Qrupu daxilində bütün müəssisələrin rəhbərliyi, işçiləri və muzdlu işçiləri | Bu siyasətə riayət etməyə və hər hansı müşahidə edilən qəza və insidentlər barədə məlumat verməyə görə cavabdehdirlər. |

# LÜĞƏT

**EHS**
Ətraf mühit, Sağlamlıq və təhlükəsizlik.

**IMS**
İnteqrasiya olunmuş idarəetmə sistemi.

# SAPMALAR

Hər hansı bir istisna halı olmayınca və ya siyasət açıq-aydın tətbiq oluna bilməyincə, bu siyasətlə bağlı heç bir istisna təmin edilə bilməz. İstisnalarla bağlı bütün sorğular siyasət sahibinə yazılı şəkildə təqdim edilməlidir. Siyasət sahibi hər bir sorğunu fərdi şəkildə qiymətləndirməli və qərar qəbul etməlidir. İstisnalar lazımi şəkildə qeydə alınmalı və sənədləşdirilməlidir.

Bu siyasətlə milli qanunlar və ya digər tətbiq olunan standartlar arasında hər hansı bir uyğunsuzluq olarsa, daha sərt tələblər tətbiq olunacaq. Bu siyasətin müddəaları ilə milli qanunvericilik və ya digər tətbiq olunan standartlar arasında uyğunsuzluqlar Qrup şirkətləri ilə birlikdə Carlsberg korporativ ofisi tərəfindən qiymətləndirilməlidir. Bu yaxınlarda Carlsberg Qrupa qoşulan şirkətlər inteqrasiya dövrü ərzində siyasətin müddəalarından azad oluna bilərlər.

# SİYASƏTİN YENİDƏN BAXILMASI

Bu siyasətə hər iki ildən bir yenidən baxılacaq və lazım gəldikdə redaktə ediləcəkdir. O, istənilən vaxt İcraiyyə Komitəsinin razılığı ilə dəyişdirilə bilər. Bu siyasətin İngilis versiyası və tərcümə edilmiş versiyası arasında hər hansı bir uyğunsuzluq olduqda, İngilis versiyası məcburi qüvvəyə malik olacaq. Yenidən baxılması üçün məsuliyyət siyasət sahibinin üzərinə düşür.

# ƏLAQƏDAR SIYASƏTLƏR VƏ TƏLIMAT KITABÇALARI

- Carlsberg-in ƏMM Standartı - Carlsberg Qrupunda bizim əsas ƏMM standartımız SHAPE-dir (Təhlükəsizlik, Sağlamlıq və Ətraf mühitin qiymətləndirilmə proqramının yüksək standartları)
- Təchizatçı və lisenziatın davranış kodeksi
- COM Kommunal
- ƏMM Rəhbər prinsiplər
- Sağlamlıq və Təhlükəsizlik Siyasəti
- Əmlak itkisinin qarşısının alınması standartları (cəmi 21)
- Sığorta Üzrə Təlimat kitabçası
- Böhranın İdarəetmə Siyasəti
- Ticarət sanksiyalarının yoxlanılması siyasətinə Əlavə 1 - ölkələrin siyahısı
- Ticarət sanksiyalarının məlumat və yoxlama nəticələri vərəqi

# ƏLAQƏ

Ətraflı məlumat üçün Qrupun ətraf mühit, sağlamlıq və təhlükəsizlik bölməsinə müraciət edin.

AZƏRBAYCAN DİLİNDƏ VERSİYA

Yanvar 2018
Mart 2017 versiyasını əvəz edir

Carlsberg Pivə zavodları A/S
100 Ny Carlsberg Vej
1799 Kopenhagen V
Danimarka